*Azərbaycan son illərdə yalnız iqtisadi və siyasi gücü ilə deyil, həm də regiona sülh gətirən aparıcı dövlət kimi beynəlxalq arenada özünü təsdiqləyib. Prezident İlham Əliyevin uzaqgörən diplomatiyası nəticəsində ölkəmiz təkcə milli maraqlarını müdafiə etməklə kifayətlənməyib, eyni zamanda Cənubi Qafqazda uzun illər davam edən münaqişələrə son qoyaraq yeni təhlükəsizlik arxitekturasının əsasını qoyub. Bakı Qarabağın azad olunması və ardınca ədalətli, davamlı sülh modelini təşviq etməklə region xalqları üçün sabitlik, əməkdaşlıq və inkişaf imkanlarını gerçəkliyə çevirib. Azərbaycan İkinci Dünya müharibəsindən sonra baş vermiş mürəkkəb münaqişələrdə tam və dönməz qələbə əldə edən nadir ölkələrdəndir. Eyni zamanda, bu qələbənin beynəlxalq səviyyədə qəbul olunması və təsdiqlənməsi Azərbaycan diplomatiyasının böyük uğurudur. Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvətilə Vaşinqtona səfəri ölkəmizin uğurunun siyasi və diplomatik müstəvidə möhkəmləndirilməsi baxımından önəmli dönüş nöqtəsi oldu və bu səfər diplomatik nailiyyət kimi dəyərləndirilir.*



# Ən yeni tarixin yazıldığı gün

Avqustun 8-də Vaşinqtonda Cənubi Qafqazın müasir tarixində yeni dövrün əsasları qoyuldu. Bu, strateji əhəmiyyət daşıyan mərhələnin başlanğıcıdır. Əldə olunan razılaşmalar regionda uzunmüddətli və dayanıqlı sülhün bərqərar olması üçün möhkəm zəmin yaratdı. Tarixi görüş və imzalanan Birgə Bəyannamə Prezident İlham Əliyevin qətiyyətli liderliyi, praqmatik diplomatiyası və milli maraqlarımızı qorumaq naminə həyata keçirdiyi unikal siyasətin növbəti parlaq uğurudur. Bu sənəd illərlə davam edən gərginlik və münaqişə səhifəsini bağlayaraq regionda yeni sülh, sabitlik və əməkdaşlıq dövrünün başlanğıcını qoyur. Prezident İlham Əliyevin ardıcıl və prinsipial mövqeyi sayəsində Azərbaycan beynəlxalq hüquq normalarına əsaslanan sülh gündəliyini qəbul etdirməklə yanaşı, suverenliyi, ərazi bütövlüyü və milli maraqlarını tam təmin edən tarixi razılaşmaya nail oldu.

Ötən gün Azərbaycan XİN-in yaydığı məlumata əsasən, səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Memoranduma əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur, iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Səfər, həmçinin iki ölkənin prezidentləri arasında keçirilən görüş çərçivəsində ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına "907-ci düzəliş"in tətbiqinin dayandırılması barədə Sərəncamın imzalanması ilə əlamətdardır. İki ölkə arasında münasibətlərdə keçmişin mənfi mirası olan "907-ci düzəliş"in tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır.

Azərbaycan-ABŞ münasibətləri hər zaman birmənalı olmayıb. 1990-cı illərin əvvəllərində ABŞ Konqresinin qəbul etdiyi "907-ci düzəliş" ikitərəfli əlaqələrdə ciddi maneə idi. Bu maddə Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində, Ermənistan tərəfindən işğala məruz qaldığı bir dövrdə Bakını cəzalandırmaq məqsədilə qəbul edilmişdi. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" isə münasibətlərə iqtisadi dinamika gətirdi. ABŞ şirkətləri Xəzərin enerji resurslarının işlənməsində mühüm rol oynadı. 2001-ci ildən sonra Azərbaycanın Əfqanıstan əməliyyatlarında Vaşinqtona dəstəyi və terrorizmə qarşı mübarizədə iştirakı əlaqələri gücləndirdi. Lakin 2021-2024-cü illərdə münasibətlərdə ciddi gərginlik yarandı. Keçmiş Co Bayden administrasiyası dövründə "907-ci düzəliş" yenidən qüvvəyə mindi, Qarabağ məsələsində ABŞ passiv mövqe tutdu, hətta erməni lobbisinin təzyiqi ilə Bakıya qarşı sərt bəyanatlar səsləndirildi. Prezident İlham Əliyev avqustun 8-də Vaşinqtonda yerli media nümayəndələrinə müsahibəsində də bu qərəzli mövqeyi xüsusi qeyd etdi: "…əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Ona görə indi biz vaxt itirə bilmərik. Xüsusilə cənab Trampın və onun administrasiyasının nümayəndələrinin - komandasının Azərbaycana olan müsbət münasibətini, yəqin ki, tamaşaçılar da bizim keçirdiyimiz görüşlərdən və mətbuat konfransındakı ab-havadan hiss ediblər".

Xarici İşlər Nazirliyinin bəyanatında həmçinin qeyd olunub ki, dövlət başçımızın ABŞ-a səfəri, Azərbaycan-Ermənistan normallaşma prosesi kontekstində mühüm nəticələrlə əlamətdar olub. Səfər zamanı Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin Sammiti keçirilib və bu görüşün nəticəsində Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannamə imzalanıb. Bununla yanaşı, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb və ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb. Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstdə, Azərbaycan tərəfi Sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir.

Vaşinqton görüşündə əldə olunan razılaşmalar, xüsusilə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması, ATƏT-in Minsk qrupunun və əlaqəli strukturların ləğvinə dair birgə müraciətin imzalanması, həmçinin regionda yeni kommunikasiya imkanlarının açılması Prezident İlham Əliyevin uzaqgörən siyasi iradəsinin, beynəlxalq səviyyədə tanınan diplomatik nüfuzunun bariz nümunəsidir. Dövlətimizin başçısının yalnız Azərbaycan deyil, bütövlükdə Cənubi Qafqazın gələcəyini müəyyənləşdirən strateji kursu hər bir vətəndaşımızda böyük qürur hissi doğurur. Vaşinqtonda imzalanan Birgə Bəyannamə döblət başçımızın milli maraqlara bağlılığının, prinsipial mövqeyinin və sarsılmaz iradəsinin parlaq təcəssümüdür. Xüsusilə vurğulanmalıdır ki, ABŞ Prezidenti Donald Tramp İlham Əliyevə yüksək hörmətini ifadə edərək, onu regionun və qlobal siyasətin ən güclü liderlərindən biri kimi qiymətləndirir. Bu mövqe Azərbaycanın beynəlxalq arenadakı artan nüfuzunu və Azərbaycan Prezidentinin qlobal miqyasda qəbul edilən siyasi çəkisini təsdiqləyir. Avqustun 8-i Azərbaycan üçün həm tarixi, həm də rəmzi əhəmiyyət kəsb edir. "8" rəqəmi xalqımız üçün uğurun simvoludur və tariximizdə mühüm qələbələrə işarə edir. Şuşaya Zəfər bayrağımızın məhz 8-də sancılması bu rəqəmin uğur rəmzi kimi xalqın yaddaşında möhkəm yer tutduğunu bir daha göstərir. Vaşinqtondakı bu tarixi nailiyyət həmin ənənəni davam etdirərək Azərbaycanın gələcək inkişafında yeni zəfər səhifəsi açır.

**Tacir SADIQOV,**
**"Respublika".**